Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

# Xidməti pasportu olan Azərbaycan vətəndaşları üçün məlumat

Xidməti pasport sahibləri bazar ertəsindən cümə günündək hər gün saat 10:15-11:00 radələrində əvvəlcədən qəbul vaxtı təyin etmədən ərizələrini viza şöbəsinə təqdim edə bilərlər.

Sənədlərin **işlənmə müddəti** bir qayda olaraq **5 iş günü** təşkil edir.

Xidməti pasport sahibləri aşağıdakı **sənədləri** təqdim etməlidirlər:

**Xidməti pasport**
□ müraciət edilən vizanın bitəcəyi tarixdən sonra ən az 3 ay etibarlı olmalıdır
□ ən az 2 boş səhifəsi olmalıdır
□ fotoşəkil olan səhifə və əvvəlki Şengen vizaları, möhürlər və qeydlər olan səhifələrin surətləri

□ **Şəxsiyyət vəsiqəsi** *(əsli + ön və arxa səhifələrin surəti)*
□ tam şəkildə doldurulmuş və üç yerdən imzalanmış **ərizə-ənket**
□ aktual biometrik **pasport şəkli** (3,5 x 4,5 sm)
□ ərizə-anketin şəxsən təqdim edilmədiyi təqdirdə **etibarnamə**

**Səyahət sığorta sənədi** (*əsli + surəti)*
□ sığorta ödənişinin minimal məbləği 30.000 € və ya 50.000 $
□ bütün Şengen dövlətləri üçün etibarlı olmalı

**Yetkinlik yaşına çatmayan şəxslər**
□ doğum şəhadətnaməsində (*əsli + surəti*)
□ valideyn və ya qəyyumun bütün Şengen dövlətlərinə səfər etmək və ərizə ilə müraciət etmək üçün notarius tərəfindən təsdiq edilən razılıq bəyanatı (*əsli + surəti*)
□ valideynlər və ya qəyyumların pasportlarının surətləri
□ valideynlər və ya qəyyumların vizalarının surətləri

**Səfərin məqsədi**
□ ərizəçinin səfərinin dəqiq məqsədi və müddəti göstərilən nota
□ xidməti səfər zamanı: Almaniyadan təsdiq sənədi təqdim olunmalıdır (alman tərəfdaşdan dəvətnamə, tədbirin proqramı və s.)
□ şəxsi səfər zamanı (turizm, qonaq): ərizəçinin bank hesabından çıxarış

**Rüsum**
□ xidməti səfər: rüsumsuz
□ şəxsi səfər - 35 avro viza rüsumu (nağd şəkildə AZN ilə səfirlikdəki aktual avro kursuna uyğun ödənilməlidir)

**Əl barmaq izlərinin götürülməsi və sənədlərin şəxsən təqdim olunması:**
Ərizəçi ilk dəfə Şengen vizası üçün müraciət edərkən əl barmaq izlərini verməlidir.
Aşağıda Viza kodeksində Mad. 13 bənd 7 əsasən əl barmaq izlərinin verilməsindən azad olma yalnız aşağıdakı hallarda nəzərdə tutulmuşdur:
– 12 yaşdan kiçik uşaqlar
– Əl barmaq izlərinin götürülməsi fiziki cəhətdən qeyri-mümkün olan şəxslər. Əgər 10-dan az əl barmaq izinin götürülməsi mümkündürsə, bu halda müvafiq sayda əl barmaq izi götürülür. Lakin əgər fiziki qüsur yalnız müvəqqəti xarakter daşıyırsa, bu halda ərizəçi növbəti dəfə viza üçün müraciət edərkən öz əl barmaq izlərini verməlidir.
– Milli dövlət və hökumət başçıları habelə hökumətin üzvləri və onlarla səfər edən həyat yoldaşları, onların rəsmi nümayəndə heyətlərinin üzvləri üzv dövlətlərin hökumətləri və ya beynəlxalq təşkilatlar tərəfindən rəsmi tədbirə dəvət olunduqları təqdirdə.

**Barmaq izləri 59 ay sistemin yaddaşında saxlanılacaqdır. Bu müddət ərzində növbəti dəfə sənəd verərkən şəxsən gəlməyə ehtiyac yoxdur.**